

*Ələsgər Talıboğlu*

## A dağlar, dərələr

Gəzdiyim a dağlar, dərələr nədən,
Nədən qoynunuza gələ bilmirəm?
Dolanıb, dolaşıb, of... qarış-qarış,
Oxşayıb, şənlənib, gülə bilmirəm.

Yaman qəribsəyib ayaq izlərim,
Süsənim, sünbülüm, o nərgizlərim,
Yarpızlı, yosunlu o kəhrizlərim,
Könül qübarımdır, silə bilmirəm.

Gözümdən getməyir o yal, yamaclar,
O dil-dil ötüşən kəklik, turaclar,
Qəlbimi sızladan o ehtiyaclar,
Köksümdə dönübdür selə, bilmirəm.

O Heşin bağları, o Söyüdbulaq,
Zəydərə, Pəydərə, o Ardıclı dağ.
Şirin duyğuların qüdrətinə bax,
Həsrətdən ölürəm, ölə bilmirəm.

Ələsgər, o yerlər Vətən tək doğma.
İçimdə inləyən bir qırıq nəğmə.
Qardaşım, sən ona tablo tək baxma,
Varlığım çevrilib külə, bilmirəm.

## Bəslədim

**Ramiz Qusarçaylıya**

İllərdir dərd əkdim... həsrət göyərdi,
Bağrımda bir Araz qəmi bəslədim.
Qatar dərdlərimi düzüb səf-səfə,
Gözümdə bir Samur nəmi bəslədim.

Nisgillər ürəkdə bax qalaq-qalaq,
Dərd üstdən neçə dərd vurulur calaq,
Fəryadlar göylərdə... tutulur qulaq,
Zilini unutdum, bəmi bəslədim.

"Kəsmə şikəstə" dir, "Yetim segah" dır,
Yanan ürəklərdə nalədir, ahdır,
Araz köks dolusu qəmli dəsgahdır,
Hayqıran Samur tək zəmi bəslədim.

Təbrizi, Dərbəndi andım yuxumda,
Göyçə başdan-başa yandı yuxumda,
Qəmli Qarabağım qandı yuxumda,
Dərd göyə dirənib... kəmi bəslədim.

Könlümdə Savalan, ürəkdə Şahdağ,
Qanımda İrəvan, canda Qarabağ,
Yurdum paran-parça, taleyə bir bax,
Ruhumda çağlayan dəmi bəslədim

## Haqqı var dağların bizdən küsməyə

**Xalq şairi Məmməd Araza**

Biz ona gərəkli oğul olmadıq,
Haqqı var dağların bizdən küsməyə.
Qoynunda əfsanə, nağıl olmadıq,
Haqqı var dağların bizdən küsməyə

Hər gecə yuxuda səsləsək də biz,
Qərib duyğularla süsləsək də biz,
Nisgilli sevgiylə bəsləsək də biz,
Haqqı var dağların bizdən küsməyə

Verdik o yerləri yağıya, yada,
Belə də nankorluq olar dünyada?..
Odur ki, bu yurddan getməyir qada,
Haqqı var dağların bizdən küsməyə

Qəm kədər asılıb başımız üstdən,
Nalə, fəryad yağır hər ötən səsdən.
Yardım diləyirik bir özgə kəsdən,
Haqqı var dağların bizdən küsməyə.

## Dağlar məni çağırır

Elə bil içimdə haray qoparır,
Çağırır qoynuna o dağlar məni .
Hər gecə yuxumda çəkib aparır,
Çağırır qoynuna o dağlar məni.

Buludlar göylərdən daşmı ələdi,
Gürşadmı qopardı, nəmmi çilədi.
Bizə nə etdisə , fələk eylədi,
Çağırır qoynuna o dağlar məni.

Laçınlar qıy vurmur zirvədə, qaşda,
Həsrətdən köz salıb yanaqda yaş da.
"Gəl"-deyə səsləyir qaya da, daş da,
Çağırır qoynuna o dağlar məni.

Nə vaxtdan ürəyim dağlar qalıbdı,
Viranə könlüm də ağlar qalıbdı.
Başımda o şirin çağlar qalıbdı,
Çağırır qoynuna o dağlar məni.

Çağırır analar çağıran kimi,
Yarını sonalar çağıran kimi.
Oduma yananlar çağıran kimi,
Çağırır qoynuna o dağlar məni.

Dədəmin , babamın ruhu çağırır,
Naləsi, fəryadı , ahı çağırır.
Ələsgər, qəlbinin şahı çağırır,
Çağırır qoynuna o dağlar məni.

## Sevdim

Mən könül bağladım talaya, düzə,
Çəməndə tər gülü, çiçəyi sevdim.
Bətnindən arının şirə çəkdiyi
Üstündən şeh daman ləçəyi sevdim.

Ruhumu oxşadı dağlar, dərələr,
Mən isə bax, yalı, yamacı sevdim.
Hər təpə başında dil-dil ötüşən,
Nəğməkar kəkliyi, turacı sevdim.

At vursan çığlıqdan keçilməz olan,
Göylərdən su əmən meşəni sevdim.
Qayada qartalı, dağda təkəni,
Bu yurdda ən zərif guşəni sevdim.

Gündüzlər nur səpən qızmar günəşi,
Gecələr ulduzlu bu ayı sevdim.
Yazda yatağına sığışmaz olan
Kür kimi sallanan bir çayı sevdim.

Şəhərlər işində nisgilli yerim
Göyçəni,Dərbəndi, Təbrizi sevdim.
Dənizlər içində qırçın dalğalı,
Xəzər tək coşqun bir dənizi sevdim.

Çoxdu bu torpaqda füsunkar yerlər,
Di gəl ki, könlümə gərəyi sevdim.
Vətənə məhəbbət eşqiylə yanan,
Sevgidən yoğrulmuş ürəyi sevdim.

## Sıxdım ürəyimə

Sıxdım ürəyimə...
bir yurdun
qara-qara buludlarının
ucundan tutub
göyə çıxa biləcəyim
selləmə yaz yağışını,
tük ürpədən
soyuq payız küləyinin
qulaq batıran
naləsini, fəryadını, qarğışını...
Taki, kimsə rahatsız olmasın deyə.

Sıxdım ürəyimə...
bu yurdun
bakirə qız kimi
gəlinlik geyinmiş bəmbəyaz yaraşığını,
aylı yay gecələrinin
bətnindən doğulan
əsrarəngiz dan işığını...
Taki, ürəklərə çirkab dolmasın deyə.

Sıxdım ürəyimə...
bu yurdun
ahı göylərə yüksələn
qüssə dolu ağrısını-acısını,
içimizi paran-paran parçalayan
talan olmuş Qarabağ tək
qəlb göynədən sancısını...
Taki, "anam-bacım qız -gəlin"lər
bir daha saçını yolmasın deyə.

Sıxdım ürəyimə...
bu yurdun
Borçalı, Təbriz, Dərbənd, Göyçə kimi
neçə-neçə perik düşmüş parasını,
yüz illərdir sağalmayan
qaysaq-qaysaq yarasını..
Taki, yağı düşmənə
əbədilik qalmasın deyə.

Sıxdım ürəyimə..
bu yurdun
aranını, dağını sıxdım.
Şəhdi-şirəsini, yağını sıxdım.
Yalını, yamasını sıxdım.
Kəkliyini, turacını sıxdım.
Qalın-qalın meşəsini sıxdım.

Nərgizini, tər bənövşəsini sıxdım.
.... və hər şeydən öncə
daşını, torpağını sıxdım.
Budaq-budaq ağacını,
ləçək-ləçək yarpağını sıxdım...
Sonra isə... endim..endim...
üz qoydum bayrağına..
Əllərimə alıb sürtdüm gözlərimə.
Sürtdüm ki....
taqət gəlsin dizlərimə...
Sıxdım ürəyimə...
bayrağını sıxdım..
Taki, o ucalıqdan bir daha enməsin deyə.

## Dənizdən gülümsəyən ay

**Dənizdə sönən bir işıq kimi**
**Dənizdə sönmək istəyirəm.**
**Dənizə dönmək istəyirəm,**
**Dənizə dönmək istəyirəm,**

***Nazim Hikmət***

Bir isti avqust günü,
bir aylı bəyaz gecə.
Tərtəzə istəklər
doğulur könlümdəcə.
Qumlu dəniz sahili,
Ruhumu oxşayır dəniz yarı oyaq,
yarı mürgülü-mürgülü...
Oturmuşam dəniz sahilində
çılın-çılpaq, tək-tənha.
Bir iki tikə bəyaz pendir, bir qarpız,
bir şüşə qırmızı məxməri şərab,
bir parça quru çörək
və bir də qəlbi Vətən eşqiylə
döyünən odlu bir ürək....
Allahım, bundan artıq mənə
nə lazımdır ki, daha...
Dənizdən gələn xəfif mehin
sərinliyi altında,
duyğularımın yel qanadlı
köhlən atında,
qırmızı məxməri şərabdan
arabir vura-vura
Gecənin bəyaz aydınlığında
göz işlədikcə uzanıb gedən
dənizi seyr edirəm.
Və oturduğum yerdəncə
birdən dənizin içindən boylanıb
gəlin tək nazlanan
o gülər üzlü ayı görürəm...
İlahi, sənin yaratdığın
mənzərəyə, tabloya bir bax-
Sanki dənizin içində
çatılmış bəyaz bir ocaq.
Dənizdən mənə gülümsəyən
o bəyz ayın nurlu şəfəqləri,
(beləcə açmaq olardı
o doğan səhərləri).
Elə dənizdəcə yox olana qədər
dururam dənizin tamaşasına,
Heyran kəsilirəm duz qoxuyan
saf , təmiz havasına....
Və beləcə....
sabaha doğru
tələsmədən addımlayır
dənizdən gülümsəyən aylı gecə.
Sabah qızılı şəfəqli
bir qızmar günəş
anamız yeri yandıracaq, yaxacaq,
Mənimsə könlümdən
tər bənövşə qoxuyan yurd həsrətli
yeni-yeni şeirlər süzüləcək, axacaq....

## VƏTƏN SEVGİSİ

Anamızın döşündən əmdiyimiz südlə
hopur canımıza,
damarımıza, qanımıza
Vətən sevgisi.
Beşiyimizin başında oxunan
laylalarda dinlədiyimiz cəngi səsi
Vətən nəğməsi.
Yay günü uca dağlara
yağan yağışdı,
analarımızın arxamızca atdığı
bir dolçə sudur,
bizi hər bəladan, dərddən qoruyan
bir duadı, alqışdı
Vətən sevgisi.
Gecələr yuxularımıza girən
sehirli, sirli butadır.
Övlad sevgisinə bənzər
Vətən sevgisi-
acısı da bal dadır.
Diz çöküb öpdüyümüz
üç rəngli bayraqdır,
öləndə gözlərimizə səpiləcək
bir ovuc qara torpaqdır
Vətən sevgisi.

## VURULDUM

Qaya gördüm-
qartalların oylağı.
Buludlara baş vururdu
uzaqlarda
ağ çalmalı Ağrı dağı.
Yamaclarda at çapdım,
sərt döngəli
dolaylarda yoruldum.
Qarşı yatan
qara-qara dağlarının
vüqarına vuruldum.
Bulaq gördüm-
bir dərədə
qaynayırdı, coşurdu,
mənim könlüm dil açıb
təzə nəğmə qoşurdu.
Yenə şair xəyalım
bu dünyanı
oba-oba,
oymaq-oymaq dolaşdı,
qara qartal
boz qayadan qanadlanıb
uca-uca dağları aşdı ...
Vətən sevgisi
ürəyimdə aşdı-daşdı.
Bu torpaq mənim yurdum,
bu dağlarsa məmləkətim,
o qara qayanın başında
yuva qurub
uşaqlıq həsrətim ...
Ayrılığın acısı
gözlərimdən
gilə-gilə süzülür,
ana yurdun nəğmələri
misra-misra
vərəqlərə düzülür.
...Qarsı yatan dağlarının
baharına vuruldum
dəli dağ çayı kimi
axıb-axıb
düzənində duruldum...

## Bu dünya bir şum yeri

Bu dünya bir şum yeri,
Oğul istər əkəsən.
Əkdiyin hər dəninsə,
Gərək qəhrin çəkəsən.

Qorxutmaya dərə, düz,
Zülmət gecə,sərt gündüz.
Könlündə min türlü söz,
Dörd bir yana səkəsən.

Sünbül-sünbül qalxasan,
Nə çəkinib,qorxasan.
Şəri əzib yıxasan,
Xeyirdən köşk tikəsən.